# ZAMANLA AYAQLAŞMAQ ARZUSU

Yaradıcı Zamanı insanlara ən böyük ərmağan olaraq ona görə bağışlayıb ki, onlar ağıllanmağa, müdrikləşməyə və kamilləşməyə imkan tapsınlar. Lakin bəşər oğlu ayağını torpağa basıb ağlı kəsəndən zamanı boş yerə xərcləyir, göz bəbəyi kimi qorumur, sanki itirməkdən zövq alır, yalnız çatışmadığını duyanda təəssüflənməyə başlayır.

Unutmamalıyıq ki, dünyada zamandan uzun heç nə yoxdur – çünki təkcə o əbədidir. Və yer üzündə insandan ötrü zamandan qısa bir şey də tapmaq mümkün deyil, o səbəbə ki, başlamaq istədiklərimizin çoxunu gerçəkləşməyə vaxt tapmırıq.

«Zaman qızıldır» desək də, onun qədr-qiymətini lap tükənəndə bilirik. Ən başlıcası isə vaxt arxada genişlənib qabaqda daralanda ondan ikiəlli yapışırıq.

Müdriklərdən biri deyib ki, kimlər vaxtdan səmərəli istifadə etməyi bacarır, zaman onlardan ötrü kifayət qədər uzundur. Deməli, düşünüb yaratmaqla və zəhmətə qatlaşmaqla zamanın da sərhədlərini genişləndirmək mümkündür.


CENTRE OF INTERNATIONAL RELATIONS

Azərbaycan, Bakı, 370001, istiqlaliyyət küç.27

Tel. 92-42-94. Faks 92-43-58

BEYNƏLXALQ ƏLAQƏLƏR MƏRKƏZİ

-03- noyabr 2004-cü il

№ 182

«XƏMSƏ» JURNALININ BAŞ REDAKTORU RAMAZAN QAFARLIYA

*Hörmətli Ramazan müəllim!*

Siz ilk «Xəmsə» nömrənizlə dahi Nizami Gəncəviyə ikinci ömür verdiniz. Bu həm tarixi və həm də müasir jurnaldır. Mən deyərdim ki, «Xəmsə» zaman keçdikcə xalqımızın əzəmətli və sevimli olacaqdır. Elə ilk nömrədə dövrümüzün ən vacib ədəbi, mədəni və siyasi məsələlərinə aydın münasibətinizi bildirmisiniz.

Əfsuslar deyirəm ki, Ümummilli Liderimiz – ədəbiyyatın, sənətin, iqtisadiyyatın bütün sahələrinə günəş nuru səpmiş rəhmətlik Heydər Əliyevə bu jurnalı görmək qismət olmadı.

Mən arzu edərdim ki, jurnalın ilk səhifəsində Heydər Əliyevin müdrik kəlamlarından epiqraflar verilsin.

Jurnalın mədəni tərtibatını xüsusi ilə qeyd etmək lazımdır.

Bu jurnal keçən əsrlərin, bu günün və gələcək əsrlərin jurnalıdır.

*Hörmətli Ramazan müəllim!*

Sizi şəxsən xalqımıza verdiyiniz xeyirxah və qiymətli hədiyyə ilə təbrik edirəm. Kollektivinizin bütün üzvlərinə təşəkkürümü bildirirəm. Belə bir jurnalın redaksiya heyətinə düşmək özü böyük şərəfdir. Əmin ola bilərsiniz ki, bu müqəddəs jurnal üçün əlimdən gələni edəcəyəm.

Dərin ehtiramla,

«Azərbaycan Dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin Prezidenti:

NƏBİ XƏZRİ

3 noyabr 2004-cü il.



Ancaq yaddan çıxarmamalıyıq ki, insanın həyatında cəmi üç hadisə var: **doğum, həyat** və **ölüm**. Bəşər oğlu doğulduğunu özü duymur, çünki ağlı hələ kəsmir. Öləndə əzab çəkir, bərk qorxu hissi keçirir. Yaşamağa diqqət yetirməyi isə unudur; əsas hadisəyə – həyata vaxtı qalmır.

Qəribədir ki, sabahın necə açılacağını bilməyənlər indiki halları ilə heç cürə barışmaq istəmirlər. Nədən insan həmişə ayağını basmağı bacarmadığı məkanı yaxşı sayır və oranın həsrətini çəkir? Keçmişə və gələcəyə düşmək imkanlarımız yoxdur. Təkcə buna görəmi hər ikisini daha gözəl zənn edirik?

Zamanın sirlərini açmağa bəşər oğlunun nə ömrü çatır, nə də... Hələ ki, onun biliyi və elmi də buna imkan vermir. Zaman özü də prizmanın hər tərəfindən bir cürə görünüb sirr üstünə sirr artırır.

Sizə zamanın müəmmalı tərəflərindən bir qədər ətraflı danışmaq istəyirik.